*Amirə Cabbar qızı İSMAYILOVA*
*b/m. Azərbaycan Kooperasiya Universiteti*
*amire1986@mail.ru*

# AZƏRBAYCANDA ƏTRAF MÜHİTİN SAĞLAMLAŞDIRILMASINDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

Məqalədə Ulu öndər Heydər Əliyevin ətraf mühitin sağlamlaşdırılmasında danılmaz rolu, bu sahədə verdiyi ekoloji qərarlar, qanunlar, sərəncamlar nəzərdən keçirilmişdir.

Bundan başqa, Ulu öndər Heydər Əliyevin qoyduğu dəsti-xətti Prezident İlham Əliyevin layiqincə davam etdirməsi siyasətinin uğurundan bəhs edilmişdir.

***Açar sözlər: Ulu öndər Heydər Əliyev, Azərbaycan Respublikası, ekologiya, ətraf mühit, ekoloji siyasət, COP-29.***

***

Xalqımızın Ümummilli lideri Heydər Əliyev təkcə Azərbaycanın daxili və xarici siyasətini inkişaf etdirməyib. Heydər Əliyev həm də əsl vətənpərvər oğul kimi ölkəsinin ekologiyası, təbiəti üçün də bir çox tədbirlərin görülməsinə nail olmuşdur. Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi 1969-1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunmuş, Hökumət səviyyəsində 30-dan artıq qərar təsdiq edilmişdir.

Ulu öndər Heydər Əliyev ikinci dəfə 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra ekoloji məsələləri bir daha öncül məsələlərdən etdi, meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş Konstitusiyanın 39-cu maddəsi məhz "Sağlam ətraf mühitdə yaşamaq hüququ" ilə bağlı olmuşdur. 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. [1]

Maddə 39. Sağlam ətraf mühitdə yaşamaq hüququ

I. Hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır.

II. Hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

III. Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər vura bilməz.

IV. Dövlət ekoloji tarazlığın saxlanılmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir. [1]

Sağlam ətraf mühit hüququ – insan sağlamlığını təmin edən ekoloji sistemləri qorumaq üçün insan hüquqları və ictimai ekoloji təşkilatlar tərəfindən müdafiə edilən insan hüququdur. [2][3]

Ulu Öndərin zamanından başlayaraq, layiqli davamçısı İlham Əliyevin hazırkı dövrünə qədər ətraf mühitin sağlamlaşdırılması, yeraltı və yerüstü sərvətlərdən səmərəli istifadə ilə əlaqədar 38 Qanun, 5 Məcəllə, 29 Fərman, 54 Sərəncam qəbul edilmişdir.

Azərbaycan Respublikasının ətraf mühitin mühafizəsi ilə bağlı beynəlxalq konvensiyalara qoşulmaq barədə dövlət başçılarının qanunlarının siyahısı aşağıdakı kimidir: [4]

Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya (16 noyabr 1972-ci il) - 06.12.1993

BMT-nin İqlim Dəyişmələri Üzrə Çərçivə Konvensiyası (Kioto Protokolu, 1992-ci il) - 18.07.2000

Ümumdünya Meteorologiya Təşkilatının Konvensiyası - 03.10.1993

Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyanın Aviameteoroloji təminata dair 3 nömrəli əlavəsi - 14.07.1992

"Kökünün Kəsilməsi Təhlükəsi Olan Vəhşi Fauna Və Yabani Flora Növlərinin Beynəlxalq Ticarəti Haqqında" Konvensiya (cites) (Vaşinqton şəhəri, 3 mart 1973-cü il) - 23.07.1998

Transsərhəd Kontekstində Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Haqqında Konvensiya (Espo şəhəri, 25 fevral 1991-ci il) - 01.02.1999

Avropanın Canlı Təbiətinin Və Təbii Mühitinin Qorunması Haqqında Avropa Konvensiyası (Bern, 19 sentyabr 1979-cu il) - 28.10.1999

"Ətraf Mühit ilə Bağlı Məsələlərdə Məlumatın Əldə Edilməsi, İctimaiyyətin Qərar Qəbul Edilməsində İştirakı Və Ədalət Məhkəməsinin Açıq Keçirilməsi Haqqında" BMT-nin Konvensiyası (Orxus şəhəri, 25 iyun 1998-ci il) - 09.11.1999

"Sərhədlərarası Kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsinə Dair Konvensiya - 01.02.1999

"Ozon Qatını Dağıdan Maddələr Üzrə" Monreal Protokolu (15-17 sentyabr, 1997-ci il) - 18.07.2000

Bioloji Müxtəliflik Haqqında Konvensiya (5 iyun 1992-ci il), Bioloji Müxtəliflik Haqqında

Konvensiyaya Biotəhlükəsizliyə dair Kartagena Protokolu - 23.03.2005

Bitki Mühafizəsi Haqqında Beynəlxalq Konvensiya (Roma, 1951-ci il) - 14.03.2000

Birləşmiş Millətlər Təşkilatının "Sərhəddən Keçən Su Axınlarının və Beynəlxalq Göllərin Mühafizəsi və İstifadəsi üzrə" Konvensiyası (Helsinki şəhəri, 17 mart 1992-ci il) - 22.10.2002

Yunesko-nun "Əsasən Su Quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında" Konvensiyasi (Ramsar şəhəri, 2 fevral 1971-ci il) - 18.07.2000

Birləşmiş Millətlər Təşkilatının "Təhlükəli Tullantıların Sərhədlərarası Daşınmasına və Kənarlaşdırılmasına Nəzarət Haqqında" Bazel Konvensiyası (Bazel şəhəri, 22 mart 1989-cu il) - 16.02.2001

"Böyük Məsafələrdə Havanın Transsərhəd Çirkləndirilməsi Haqqında" Konvensiya (Cenevrə şəhəri, 13 noyabr 1979-cu il) - 09.04.2002

"Davamlı Üzvi Çirkləndiricilər Haqqında" Stokholm Konvensiyası (22 may 2001-ci il) - 09.12.2003

"Sənaye Qəzalarının Transsərhəd Təsiri Haqqında" Konvensiya (Helsinki şəhəri, 17 mart 1992-ci il) - 04.05.2004

"Xəzər Dənizinin Dəniz Ətrafı Mühitinin Mühafizəsi Haqqında" Çərçivə Konvensiyası (Tehran şəhəri, 4 noyabr 2003-cü il) - 04.04.2006

"Avropa Landşaft Konvensiyası" (Florensiya şəhəri, 2000-ci il oktyabr ayı) - 24.06.2011

Azərbaycan Respublikasının ərazisində meşə münasibətlərinin tənzimlənməsinin, meşələrdən istifadənin, onların mühafizəsinin, qorunmasının, bərpasının, ekoloji və ehtiyat potensialının yüksəldilməsinin hüquqi əsaslarının müəyyən olunması məqsədilə Ulu öndər 30 dekabr 1997-ci il "Azərbaycan Respublikası Meşə Məcəlləsi haqqında" qanun imzalamışdır. Meşə münasibətlərinin tənzimlənməsi dedikdə meşə bitkilərinin, torpağın, heyvanat aləminin və ətraf mühitin mühüm ekoloji, iqtisadi və sosial əhəmiyyət kəsb edən digər anlayışları nəzərə alınmaqla həyata keçirilir.

Respublikamızda ekoloji problemlərin həll edilməsini daim diqqətdə saxlayan, xüsusilə yaşıllaşdırmaya böyük önəm verən Ulu öndər Heydər Əliyevin 2001-ci il 23 may tarixli Fərmanı ilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan istifadənin ayrı-ayrı istiqamətləri ilə məşğul olan və fəaliyyətlərində bir-birini təkrarlayan Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Dövlət Geologiya və Mineral Ehtiyatlar Komitəsi, Dövlət Hidrometeorologiya Komitəsi və "Azərmeşə" İstehsalat Birliyi ləğv edilib və bunların bazasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılıb. Respublika Prezidentinin 2001-ci il 18 sentyabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"si təsdiq edilmişdir. Əsasnaməyə görə Azərbaycan Respublikası ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində ətraf mühitin qorunması, təbiətdən istifadənin təşkili, yeraltı sulardan, mineral xammal ehtiyatlarından və yerüstü təbii sərvətlərdən səmərəli istifadə edilməsi, onların bərpası, hidrometeoroloji proseslərin müşahidəsi və proqnozlaşdırılması sahəsində dövlət siyasətinin həyata keçirilməsi nazirliyə tapşırılmışdır.

Ölkəmizdə bu dövrdə qəbul edilən ekoloji siyasətə dair ilk sənəd olan "Azərbaycan Respublikasının Ekoloji Konsepsiyası"nda Respublikamız üçün ətraf mühitin mühafizəsi baxımından mühüm əhəmiyyət kəsb edən problemlərin həlli üzrə əsas prinsiplər öz əksini tapıb, sağlamlıq və ətraf mühitin mühafizəsi baxımından hüquqi-normativ aktların hazırlanması və qəbul edilməsi sahəsində bir çox işlər görülüb. 1999-cu ildə Milli Məclisin qəbul etdiyi "Ekoloji təhlükəsizlik haqqında" Qanun Ulu öndər tərəfindən təsdiq olunmuşdur. 2000-ci ildə bu istiqamətdə daha iki qanun - "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanunlar qəbul edilib. O ağır keçid illərində bütün çətinliklərə baxmayaraq, Azərbaycan dövlətinin yaşıllaşdırma, abadlaşdırma, ekologiya və ətraf mühitin qorunması sahəsində gördüyü böyük işlərlə yalnız fəxr etmək olar.

Professor Hüseynqulu Bağırov Ulu Öndər Heydər Əliyevi Azərbaycanda ekoloji konsepsiyanın yaradıcısı adlandırmışdır. [6]

Heydər Əliyev məktəbinin layiqli davamçılarından birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə "Hərəyə bir ağac əkək", "Təbiətə öz töhfəni ver" devizi altında ölkəmizin bütün regionlarında eyni anda minlərlə ağac əkilmişdir.

Ölkəmizdə ekologiya və ətraf mühitin qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial-iqtisadi inkişaf sahəsində müəyyən olunmuş düzgün siyasət nəticəsində bu siyasətin tərkib hissəsi olan ekoloji durumun sağlamlaşdırılmasına bundan sonra da nail olunacaq.

Son illər isə əldə olunmuş nailiyyətlər dövlətin iqtisadi əsaslarını daha da möhkəmləndirərək qeyri-neft sektorunun, infrastruktur sahələrinin, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, yoxsulluğun azaldılması, ekoloji təhlükəsizliyinin təmin olunması və digər məsələlərin həlli istiqamətində daha təsirli tədbirlərin həyata keçirilməsi üçün imkanları genişləndirib. Azərbaycanda davamlı inkişaf konsepsiyasının müddəalarına uyğun olaraq iqtisadi inkişafın ekoloji tarazlıqla vəhdət təşkil etməsi, üstünlüyün ətraf mühitin qorunmasına verilməsi, ekoloji problemlərin ilk növbədə həll olunması, gələcək nəsillərin imkanları məhdudlaşdırılmadan çağdaş nəsillərin rifahının yaxşılaşdırılması ön xəttə çəkilib. Buna nail olmaq üçün, ilk növbədə, iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi və ətraf mühitin qorunmasının təmin olunması istiqamətində çoxşaxəli fəaliyyət həyata keçirilir.

Ölkədə iqtisadiyyatın bütün sahələrinin inkişafı ilə bağlı mövcud olan ekoloji problemlərin həll edilməsi üçün təmiz texnologiyaların tətbiqinə böyük yer verilir. "Yaşıl iqtisadiyyat"a sərmayələrin cəlb olunması üçün ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadə etmək, istilik effekti yaradan qazları azaltmaq üçün, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə üzrə tədbirlər həyata keçirilir. Ölkəmizdə "yaşıl iqtisadiyyata" keçid mərhələsində ekoloji və iqtisadi tələblərə cavab verməyən çoxlu sayda müəssisələr bağlanıb, digərləri yenidən qurularaq modernləşdirilib, yeni aztullantılı və tullantısız texnologiyalar tətbiq olunmuşdur.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP-29 bu il Azərbaycanda keçiriləcək.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı – COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

COP-a ev sahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edir. Hər regional qrup, üzvlərindən bu konfransı təşkil edəcək bir ölkəni irəli sürmək üçün konsensusla qərar qəbul etməlidir.

2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Azərbaycanla yanaşı, Ermənistan və Bolqarıstan da namizədliklərini vermişdilər. Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Aparatı arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbaycanın xeyrinə öz namizədliyini geri çəkib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri götürüb.

Beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib.

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi Prezident İlham Əliyevin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ciillədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il, maddə39
2. "The Case for a Right to a Healthy Environment". Human Rights Watch. 2018-03-01. 2021-01-20 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2021-02-10.
3. "The Time is Now for the UN to Formally Recognize the Right to a Healthy and Sustainable Environment". Center for International Environmental Law. 2018-10-25. 2020-11-09 tarixində arxivləşdirilib. İstifadə tarixi: 2021-02-10.
4. https://eco.gov.az/az/qanunvericilik/konvensiyalar-ve-protokollar
5. 30 dekabr 1997-ci il tarixli N 424-IQ nömrəli "Azərbaycan Respublikası Meşə Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1998-ci il, № 3, maddə 139)
6. H.Bağırov //Xalq qəzeti.- 2005.- 9may.- S. 3
7. https://unfccc.int/cop29



***Амира Джаббар кызы Исмайлова***
***Ст. пред. АУК***


**Улучшение окружающей среды в Азербайджане роль Национального Лидера Гейдара Алиева**


***Резюме***

В статье рассмотрена неоспоримая роль Великого лидера Гейдара Алиева в улучшении окружающей среды, принятые в этой области экологические решения, законы и распоряжения.

Кроме того, был обсужден успех политики президента Ильхама Алиева по правильному продолжению политики, заданной Великим Лидером Гейдаром Алиевым.



***Ключевые слова: Великий Лидер Гейдар Алиев, Азербайджанская Республика, экология, окружающая среда, экологическая политика, COP29.***



***Amira Jabbar Ismayilova***
***Head teacher of ACU***


**Improvement of the environment in Azerbaijan the role of National Leader Haydar Aliyev**


***Summary***

In the article, the undeniable role of the Great Leader Haydar Aliyev in the improvement of the environment, the environmental decisions, laws, and orders made in this area were reviewed.

In addition, the success of President Ilham Aliyev's policy of properly continuing the policies set by Great Leader Haydar Aliyev was discussed.



***Key words: Great Leader Haydar Aliyev, Republic of Azerbaijan, ecology, environment, environmental policy, COP29.***